*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journa lof History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
*https://doi.org/10.46868/atdd.2023.*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received: 10.10.2023*
*Kabul tarihi |Accepted: 22.10.2023*
*Yayın tarihi |Published: 10.11.2023*

**Gulnare Yusifova**

*https://orcid.org/0000-0003-0822-0254*
*Associate Professor, Doctor of Philosophy, Baku State University, Azerbaijan, g_y_m65@mail.ru,*

*Atıf Künyesi | Citation Info*

Yusifova, G. (2023). Ulu Öndər və Azərbaycanda Ana Dil. *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı,* *10* (2), 415-420.

# Ulu Öndər və Azərbaycanda Ana Dil

***Öz***

*Azərbaycan elmi mühitində eləcədə qlobal informasiya məkanında Heydər Əliyev şəxsiyyəti, onun siyasi, iqtisadi düşüncələri, kulturoloji baxışları haqqında xeyli materillara rast gəlmək olar. Eləcə də onun ana dilinə münasibəti və ölkəsinə, mədəniyyətinə baglılıgı ilə əlaqədar çox sayda əsərlər yazılmışdır.Ulu öndər və ana dilimiz adlı araşdırmada Heydər Əliyevin dövlətçiliyə və azərbaycançılığa verdiyi əvəzsiz tarixi töhfə öz əksini tapmışdır. Hər bir xalqın, millətin və dövlətin mövcudluğun ilkin şərti olan dil Ulu öndər tərəfindən ilk dəfə 1978-ci ildə və ikinci dəfə isə 1995-ci ildə Azərbaycan xalqının, millətinin dövlətinin tarixinə əbədi yazıldı. Azərbaycançılıq ideologiyasını yaradan, Azərbaycan dilini dövlət dili edən Ümummilli Lierin ana dilinə, xalqına olan məhəbbəti məqalədə onun bir çox müdrik kəlamı ilə işıqlandırılmışdır.Hazırki məqalədə Heydər Əliyevin şəxsi çıxışlarında, nitqlərində ifadə etdiyi kəlamlardan istifadə edərək onun bu mövzuya münasibətini müəyyənləşdirməyə, eləc də böyük siyasi xadimin geniş planda kulturoloji portretinin yaradılmasına çalışırıq.Azərbaycanın social-siyasi, iqrisadi və mədəni həyatının bütün sahələrində oldugu kimi Heydər Əliyev "ana dili", onun öyrənilməsi, təbligi və inkişafi sahəsində öz buraxmış şəxsiyyətdir və məqalədə bu problemlər öz əksini tapır.*

***Açar sözlər:*** *Ulu Öndər, Ümummilli Lider, Prezident, Azərbaycan Dili, Konstitusiya, Siyasət.*

# The Great Leader and Mother Language in Azerbaijan

***Abstract***

*In the scientific community of Azerbaijan, as well as in the global information space, you can find a lot of materials about the personality of Heydar Aliyev, his political, economic thoughts, and cultural*

*views. Many works have been written about his attitude to his native language, attachment to his country and culture. Heydar Aliyev's irreplaceable historical services to statehood and Azerbaijan are reflected in the study "The Great Leader and Our Mother Language." Language, which is the "prerequisite for the existence" of every people, nation and state, was forever inscribed in the history of the Azerbaijani people and national state for the first time in 1978, the second time in 1995. The article emphasizes the love of the national language for its native language and its people, which created the ideology of Azerbaijanism with its many wise words and turned the Azerbaijani language into the state language. In this article we attempt to determine Heydar Aliyev's attitude to this topic using the words expressed in his personal speeches and writings, as well as to create a broad cultural portrait of the great political figure. As in all spheres of socio-political, economic and cultural life of Azerbaijan, Heydar Aliyev is a rare personality in the field of "mother tongue", its study, propaganda and development, and these problems are reflected in the article.*

***Keywords:*** *Great Leader, National Leader, President, Azerbaijan Language, Constitution, Politics*

## Giriş

Müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi dövrümüzün ən aktual məsələlərindən biridir. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da anadan olmuşdur. Ulu öndər 1969-cu il 14 iyunda Azərbaycan Kommunist Partyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş və 1982-ci ilə qədər bu vəzifədə olmuşdur.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib (Eliyev, 2011). 1998-ci il oktyabrın 11-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. 2003-cü il dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat edib və dekabrın 15-də Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur. Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, çoxsahəli və zəngin irsi tükənməz ibrət məktəbidir (Qizi, 2022). İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və önməz xarakter almışdır. Ulu öndərin vətəni, xalqı qarşısında xidmətləri misilsizdir. Bunların içərisində dilimiz və azərbaycançılıq ideologiyası Heydər Əliyevin əvəz

olunmaz tarixi xidmətidir. Hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən kasıb, zəruri təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyinin yaşamışdır. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir. Hər bir xalqın, millətin mövcudluğunun şərtlərindən biri də onun dilidir. Azərbaycan dilinin dövlət dili elan edilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Bəlli olduğu kimi dövlət dili sahəsində fəaliyyətə Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldiyi ilk günlərdən başlamışdır.

Azərbaycan əbədi və xalq danışıq dilini dərindən bilən Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, məsələn ADU-nun 50 illiyinə həsr olunmuş yubiley toplantısında, yüksək dövlət şəxsiyyətlərində aparılan müşavirələrdə ana dilində parlaq çıxış edərək, özünə böyük hörmət və məhəbbət qazanmışdır (Kazimi, & Aliyeva, 2019). O, çox yaxşı bilirdi ki, onun qazandığı bu böyük hörmət və məhəbbət, eyni zamanda, onun istifadə etdiyi, danışdığı dilə – Azərbaycan dilinə çox böyük hörmət və məhəbbətin nəticəsidir. 1970-ci illərin ortalarından başlayaraq SSRİ-yə daxil olan respublikaların ictimai-siyasi həyatında dil məsələsi gündəmə gətirildi.

SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirilmişdi. Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar «vahid dil» siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Çünki bu, onlardan ötrü tale məsələsi ola bilərdi. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdi. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edildi (Azərbayxan Sovet Sosialist Respublikası Konstitusiyası, 1978). Həmin Konstitusiya bütün Respublikalarda hazırlanan yeni konstitusiya üçün baza rolunu oynayırdı. Həmin Konstitusiyada dövlət dili haqqında maddə yox idi. Ayrı-ayrı respublikalarda qəbul edilmiş Konstitusiyaların heç birində həmin maddə öz əksini tapmadı.

Azərbaycanda isə vəziyyət başqa cür idi. Heydər Əliyev ana dilinin dövlət dili olması uğrunda mübarizəsini davam etdirirdi. De-fakto dövlət dili uğrunda ardıcıl mübarizə aparan respublika rəhbəri həmin dilin Konstitusiyada qeyd olunmamasına dözə bilməzdi (Kazimi,

2021). Respublikanın rəhbəri ziyalıları, bütün xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvəsi ilə mübarizə aparmış, bütün çətinliklərə və maneələrə böyük hünərlə sinə gərmişdir.

Nəhayət 1978-ci il aprelin 21-də Azərbaycan SSR-i Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş Ali Sovetin VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: «Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir».

1978-ci il Azərbaycanın Konstitusiyası Heydər Əliyevin öz xalqı, öz vətəni qarşısında göstərdiyi xidmət idi. Nəticədə Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu aldı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin atributlarından birini məharətlə qorumuşdur. Bundan sonra isə ana dilimizin inkişafı və qorunması sahəsində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, ana dilində nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi güdürdü.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra hakimiyyətə gələn şəxslər ana dilinə münasibətdə heç də normal olmayan mövqe tutdular. 1992-93-cü illərdə onlar heç bir məntiqi əsasa söykənmədən dövlət dilinin adının dəyişdirilməsi və «türk dili» adlandırılmasını təklif edirdilər. Uzun mübahisələrdən sonra hakimiyyət xalqın rəyini nəzərə almadan, referendum keçirmədən 1992-ci ilin dekabrında «Dövlət dili haqqında» Qanunu «müzakirə» edərək Azərbaycan dövlət dilinin «türk dili» olması barədə qərar qəbul etmişdir. Hətta təcili olaraq ana dili dərsliklərini «Türk dili» adlı dərsliklərlə əvəzləyərək çapını da həyata keçirmişdir.

Yenidən hakimiyyətə qayıdan xalqın xilaskarı Ulu öndər bu məsələyə münasibət bildirərkən Milli Məclisin qəbul etdiyi bu qərarı kəskin pisləyərək demişdir ki, bu bütövlükdə tarixi bir qərar Azərbvaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır. 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm vermiş, ana dilimizin – Azərbaycan dilinin adını özümüzə qaytarmışdır.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Bu təkliflərin çox böyük

əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir. Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicimsi Ulu öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» Fərman imzalamışdır.

Fərmanda dilimizin öz tarixi inkişafı boyu əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində yaranmış problemlər də geniş təhlil edilmiş və həmin problemlərin həlli yolları göstərilmişdir. Tarixi əhəmiyyət kəsb edən bu sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. Həmin Fərmanla Azərbaycan Prezidenti Yanında Dövlət Dil Komissiyası yaradılmışdır. Dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı.

**Nəticə**

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ulu öndərin «Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm» müdrik kəlamı ana dilimizə olan məhəbbət və hər bir azərbaycanlı üçün örnəkdir. Azərbaycan xalqı, onun dili mövcud olacaq bütün tarixi dövrlərdə Ulu öndər Heydər Əliyev də əbədi yaşayacaqdır.

**Ədəbiyyat**

*Azərbayxan Sovet Sosialist Respublikası Konstitusiyası.* (1978). Qanun.

Eliyev, H. Ə. oğlu. (2011). *Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar* [Mətn].- İyun, 2001 - avqust, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev K. 35. Azərnəşr.

Kazimi, P. F. O. (2021). Democratic countries and ways of influencing the nature of information. *Technium Social Science Journal, 22,* 847-851.

Kazimi, P., & Aliyeva, A. (2019). Evaluation criteria of censorship and limitation in library and information activity. *Historical sciences, 17,* 65-72.

Qizi, Y. G. Y. (2022). Philosophy and sociology of modern information activity (modern challenges and scientific and theoretical analysis). *Technium Social Science Journal, 37*, 760-768.